# CӘLİL NAĞIYEV – 75



**Cəlil Qərib oğlu Nağıyev** 25 iyul 1945-ci il tarixində Gəncə şəhərində anadan olub. 1954-1964-cü illərdə Gəncə şəhəri 20 saylı dəmir yol ümumtəhsil orta məktəbində, 1964-1969-cu illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. O, 1969-1970-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Filologiya fakültəsində staj keçib, 1970-1973-cü illərdə həmin Universitetin Slavyan filologiyası kafedrasının əyani aspirantı olub, 1974-cü ildə "Serb romantik poeziyası və Şərq" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1984-cü ildə dosent elmi adını alıb. Alim 1990-cı ildə Bakı Dövlət Universitetinin Dissertasiya Şurasında "Cənubi slavyan – Azərbaycan ədəbi əlaqələri və təmasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, 1992-ci ildə professor elmi adına layiq görülmüşdür. 1993-cü ildə Bakı "Asiya" Universitetini təsis etmiş, 2015-ci ilədək bu ali təhsil ocağına rəhbərlik etmişdir.

C.Nağıyev 1974-cü ildən təyinatla göndərildiyi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin hazırda rəhbərlik etdiyi Dünya ədəbiyyatı (əvvəllər Xarici ədəbiyyat tarixi) kafedrasında pedaqoji fəaliyyətə başlamış, bu müddət ərzində Qədim Şərq ədəbiyyatı, Antik ədəbiyyat, Orta əsrlər Qərbi Avropa və İntibah dövrü Qərb ədəbiyyatı, XVII-XVIII və XIX-XX əsrlər Avropa ədəbiyyatı, Yapon ədəbiyyatı fənlərini tədris etmişdir. Çoxşaxəli tədqiqat istiqamətinə malik alim eyni zamanda Azərbaycan ədəbiyyatı və folkloru mütəxəssisi kimi də tanınır. 300-dən artıq elmi-metodik məqalənin, müxtəlif yöndə publisistik yazının, altı monoqrafiya, üç dərslik, üç bədii tərcümə kitabının müəllifi olan C.Nağıyev 1994-cü ildən bu günə qədər dünyanın müxtəlif ölkələrində (Azərbaycan, Rusiya, Rumıniya, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxstan, Makedoniya, Moldova, Şimali Kipr, Ukrayna, Hindistan, Misir və s.) Azərbaycan elmini müvəffəqiyyətlə təmsil etmiş, 100-dən artıq müxtəlif elmi qurultay, konfrans və simpoziumda məruzə ilə çıxış etmişdir.

Alimin çoxsaylı tədqiqatları içərisində "Slavyan ədəbiyyatlarında romantizm" (1973), "Yovan Yovanoviç Zesayın poeziyası" (1973), "Serb romantizmi və Şərq" (1987), "Koroğlu"nun Çin qaynaqları" (1998), "Azərbaycan və cənubi slavyan ədəbiyyatlarının qarşılıqlı əlaqəsi" (2003), "Klassik fransız ədəbiyyatından yeddi portret" (2014) monoqrafiyalarının öz yeri və çəkisi var.

"Qədim Şərq ədəbiyyatı tarixi" dərsliyi (2009) Cəlil müəllimin uzun illər oxuduğu mühazirələrin mükəmməl sonucudur. O, İ.M.Tronskinin "Antik ədəbiyyat tarixi" dərsliyini dilimizə tərcümə edərək yenidən işləmiş (2011) və nəşr etdirmiş, bununla da tədris prosesindəki mövcud boşluğu doldura bilmişdir.

O, dünya ədəbiyyatı seriyasından bir çox kitab və antologiyaların tərtibçisidir. Məsələn, "Bolqar hekayələri (satira və yumor)", "Bağban (Nobel mükafatı laureatlarının əsərlərindən seçmələr)", "Asiya xalqlarının nağıl və əfsanələri", iki cilddə "Rus uşaq ədəbiyyatı" kimi mühüm toplular onun redaktəsi və geniş ön sözü ilə oxucuların istifadəsinə verilmişdir.

1975-ci ildən bədii tərcümə sahəsində fəaliyyət göstərən Cəlil Nağıyev Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, Joze Qomes Ferreyranın "Cəsur Joanın qəribə macəraları", Qustav Floberin "Sadəlövh", İvo Andriçin "Drina körpüsü" kimi irihəcmli əsərləri orijinaldan dilimizə çevirmişdir. Azərbaycan oxucusu Vladimir Çərkəzin "Dişi qurd", "Bosniya" kimi onlarla dünya ədəbiyyatı nümunəsini ilk dəfə məhz Cəlil Nağıyevin tərcüməsində oxumuşdur.

Onun elmi rəhbərliyi altında onlarla doktorant və dissertant fəlsəfə və doktorluq dissertasiyası üzərində çalışır. Cəlil Nağıyevin elmi və pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən də

yüksək qiymətləndirilib, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamı ilə o, "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Bu günlərdə ömrünün 75-ci baharına qədəm qoyacaq professor Cəlil Nağıyev həmişəki enerji ilə yenə də iş başındadır. Tez-tez onun hansısa əsəri tərcümə etdiyini, yeni monoqrafiya və ya kitab üzərində çalışdığı xəbərlərini alırıq. Biz də öz növbəmizdə sevimli müəllimimizi yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayırıq.

**Aynur Nəcəfova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*